# Vətən sevdalı igid

**Çavuş Ramin Hümmətov aprel döyüşlərində elə bir qəhrəmanlıq göstərdi ki, onun 6 gün ərzində keçdiyi döyüş yolunu Azərbaycan tarixinin şanlı səhifələrdən saymaq olar. Vətəninə layiqli övlad olmağı ,onu canından çox sevdiyi, bu amal uğrunda qanından və hətta canından belə keçməyə hazır dayanmağı bir daha göstərdi. Döyüşlərdə son dərəcə cəsur, qorxmaz olan Ramin Azərbaycanımızın halal torpaqlarına soxulan neçə-neçə düşməni cəhənnəmə vasil etdi. Beləcə də vətənin qeyrət sınağında millətin başını ucaltdı. Sübut etdi ki, biz məğlub olmağa layiq xalq deyilik. İndi xalq öz qeyrətli oğlunu əsl övlad məhəbbəti ilə sevir, yeni doğulan körpələrinə " Ramin" adını qoyurlar. Fəqət Ramin tək oğlu olan vətən heç vaxt basılmaz.**

Ramin Süleyman oğlu Hümmətov 1985-ci ildə dağlar diyarı, mərdlər beşiyi, dahilər yurdu olan Lerik rayonunun Hamarat kəndində dünyaya göz açıb. Bir müddət keçəndən sonra ata ailəsi götürüb birgə Lənkəran rayonunun Kərgəlan kəndinə köçür, ocaq qalayır, yurd-yuva salır. Əqidəsinə, amalına sadiq, sözübütöv, mərd insan olan Süleyman kişi burada da tezliklə hörmət qazanır. Ramin də boy atıb, vətənin güvəndiyi mərd igidlərdən olur. Orta məktəbi başa vuranda öz əqli, zəkası ilə çoxundan fərqlənir. Qəlbi vətən, torpaq sevgisinə sevdalanır

2003-cü ildə kiçik ürəyində böyük bir Azərbaycan yaşatmaqla Milli Ordu sıralarına xidmətə yola düşür. Ön cəbhədə xidmətə başlayır. İlk gündən fəallığı ilə seçilir. Komandirlərdən, təcrübəli əsgər dostlardan silahla rəftarı, döyüş qaydalarını öyrənir. Vətənin hər daşına, qayasına vurğun gənc əsgərin ürəyi düşmən işğalında qalan əzəli yurd yerləri azad edib qələbə ilə evə dönmək arzusu ilə döyünür. Verilən tapşırıqları müvəffəqiyyətlə yerını yetirir, döyüş igidliyinə görə fərqlənir. Torpaqların qoruması naminə bir-neçə dəfə gücünü düşmənə göstərir. Həm də çətin anda, bəd ayaqda əsgər dostlarına etibarlı arxa, dayaq olur. Hər şeydən əziz bildiyi vətənə borcunu şərəflə verib, yaşadığı Kərgəlan kəndinə qayıdır.

Vətənin igid oğlu Lənkəranda hər yerdə, hər zaman hörmətlə qarşılanır, onunla qürur duyurlar. Ramin xalqına fayda verməkdən başqa bir yol tanımır. Torpaqdan yapışır, zəhmətdən usanmır. Həyatda nə edirsə, sevgi ilə edir. Heç də hamıya qismət olmayan qabiliyyəti zəhmət meydanında da ona uyğur gətirir, xeyirxah əməlləri, gərəkli işləri çoxunun əlindən tutur. Ülvi məqsədlərlə illəri yola salır. Sevdiyi-seçdiyi qızla ailə həyatı qurur. Fatimə, Ruqiyyə adlı qızları dünyaya gəlir. Günləri nə qədər xoş keçsə də, canından çox sevdiyi vətən torpaqların yağı tapdağında olması Ramini narahat edir, içini yandırır, hər an erməni cəlladlardan qisas almaq üçün məqam axtarır. Axırda naməd qonşuların xəyanətinə dözməyib ailədə məsləhətləşib, onların xeyir- duası ilə 2008-ci ildə müddətdən artıq hərbi xidmətə gedir. Lazımi döyüş vərdişlərə yiyələnib cəbhənin ən qaynar nöqtəsinə yollanır və düşmənə sonsuz nifrətlə qisas gününə hazırlaşır. Elə bu ali məqsədlə vətən məhəbbəti, torpaq sevgisi daha da qəlbinə, ruhuna, hərəkətlərinə, davranışına hopur.

8 ilik əsgər həyatı çoxuna nümunə göstərilir. Yağı tapdağında qədim yurd yerlərini tezliklə azadlığı üçün daim döyüşçü səriştəsini artırır.

Onu bacarıqlı komandir kimi də yüksək dəyər verirlər. Tabeliyində olan əsgərlərə qayğısını əsirgəməyən manqa komandiri həm də hərbi sahəsində bildiyini onlara böyük həvəslə öyrədir. Təlimlərin yekunlarına görə çavuş Raminin manqası birincilər sırasında olur. Yaxşı dərk



edir ki, yüksək dəyərlərə, döyüş ruhuna malik əsgərlərin hünəri ilə ölkəmizin ərazi bütövlüyü mütləq təmin olunacaq.

Ulu öndər Heydər Əliyevin " Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissləri hər şeydən üstün tutulmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə və hər an qələbəyə nail ola bilər" müdrik kəlamlarını gündəlik fəaliyyətində rəhbər tutur.

Vaxt tapıb evlə də əlaqə saxlayır. Atası Süleyman kişi ilə həmişə qürurla danışır. Bir dəfə isə deyir:

-Ata məndən arxayın olun. Mən möhtəşəm bir ordunun əsgəriyəm. Əsgər dostlarım da torpaq uğrunda canından keçməyə layiq igid ərdirlər. İndi Ali Baş Komandan hər bir əsgərin qayğısı ilə şəxsən özü maraqlanır. Milli Ordumuz Ali Baş Komandanın döyüş əmrini gözləyir. Ordumuz o qədər qüdrətlidir ki, daha ölməyə yox, yalnız öldürməyə gedəcəyik. Tezliklə düşməndən qisas alınacaq. Əmin olun ki, o gün çox da uzaq deyil.

Bəli, Raminin gücünü erməni dığalarına göstərmək məqamı günbəgün yaxınlaşırdı. Düşmən Füzuli rayonu ərazisində yerləşən Lələ təpə yüksəklikdən böyük qüvvə ilə hücuma keçir. Hətta dinc əhaliyə də güllə atırlar.

Yeni açılan 1 aprel günü Qisas almağın ən mühümü, ən vacibi. Ramin dəstəsi ilə döyüşə atılır. Düşmənə endirilən ilk zərbə nəticəsini göstərir. Dığalar ordumuzun gücünü görür. Çavuş Ramin dəstəsi ilə Lələ təpə yüksəkliyin alınmasında igidliklə, geriyə baxmadan irəliləyir. Füzuli istiqamətində düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilir. Ramin lap öndə döyüşür. Xançinar ətrafında beş dayaq məntəqəsi ermənidən təmizlənir. Komandir mayor Amil Göyüşov, gizir Daşqın İbrahimov, çavuşlar Təyyar Həsənov, Ayaz Hüseynov qələbəyə inamla, intiqam hissi ilə vuruşurlar. Təşvişə düşən düşmən gəbərə-gəbərə qaçmağa başlayır. Ramin ermənilərlə amansiz mübarizə aparır. Rəşadətlə vuruşur. Təəssüf ki, çox saylı mərmi qəlpəsindən ağır yaralanır. Tez onu Əhmədbəyli hospitalına aparırlar. Ağır olsa da, hospitalda həkimlər ümidverici heç nə demirlər. Müdafiə Nazirliyinin hərbi vertolyotu ilə Bakıdakı Silahlı Qüvvələrin Mərkəzi Hospitalına çatdırılır. Ramin düşməndən yaxşı qisas almışdı. Qaldı ki, işğal altında olan torpaqlar hələ onun üçün böyük nisgil idi. Onun yenidən həyata qayıtmasına səbəb bu nisgil, vətən eşqi olur. Sağ qalması əsl möcüzədir. Dörd ay müalicədən sonra ailəsinin görüşünə gəlir. Yaraları hələ tam sağalmayıb. Müalicəsini davam edir. Bütün ağrılara baxmayaraq Raminin ən böyük arzusu vətən torpaqların düşmən tapdağından azad görməkdir. Buna görə də son nəfəsə qədər düşmənlə vuruşa hazırdır.

**O, dövlət tərəfindən "Şücaətə görə" medala layiq görülüb. Belə mərd oğullarla fəxr etməyə dəyər.**

**Zəfər ORUCOĞLU,**
**AJB-nin üzvü**

Ədalət 2019.- 4 aprel.- S.4.